*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 398-405*

https://doi.org/10.62837/2026.2.398

**SEVİNC QASIMOVA**
***Filologiya üzrə fəlsəfə doktoru***
***AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi***
***e-mail: sevinccqasimova@gmail.com***

# "DƏDƏ QORQUD" DASTANININ MİFİK-BƏDİİ FƏLSƏFƏSİ

**(XÜLASƏ)**

"Dədə Qorqud" dastanının bədii fəlsəfəsinin öyrənilməsi hər bir halda mifologiya ilə bağlıdır. Dastanın əsasında duran fəlsəfə mifik fəlsəfədir. Burada fəlsəfi qanunauyğunluqlar adına nələri aşkalaya biləriksə, onların fəlsəfi mahiyyətini bütün hallarda mifologiya təşkil edir. "Dədə Qorqud" dastanının mifik-bədii fəlsəfəsi" mövzusu üç anlayışı əhatə edir: mif, fəlsəfə və bədiilik. Mifə münasibətdə məsələ aydındır: dastanın əsasında mifin məntiqi durur. Fəlsəfəyə münasibətdə isə məsələ bir qədər başqa şəkil alır. Fəlsəfə – təbiət, cəmiyyət və zaman haqqılnda ən ümumləşmiş təsəvvürləri əhatə edən dünyagörüşü sistemidir. Dastan isə ilk növbədə bədii sənət hadisəsidir. Beləliklə, dastanda oğuzların mifik-fəlsəfi düyagörüşləri bədii dillə təsvir olunmuşdur.

**Açar sözlər:** "Dədə Qorqud" dastanı, mifik fəlsəfə, mifik-bədii fəlsəfə mifologiya, Dədə Qorqud obrazı

"Dədə Qorqud" dastanı Oğuz babalarımızın yaratdığı möhtəşəm sənət abidəsidir. Onun məna tutumu son dərəcə zəngin, geniş və çox qatlıdır. Dastanın hər bir cümləsinin, sözünün, deyiminin altında çox dərin məna qatları vardır. Elə bu cəhətdən, tədqiqatçılar onu nə qədər öyrənsələr də, həmin mənalar tükənmir. Ən maraqlı və heyrətamiz cəhət isə ondan ibarətdir ki, bu dastan təkcə keçmişi yox, bu günü və gələcəyi də özündə inikas edir. Yəni dastandan yalnız keçmişimiz yox, bu günümüz də, gələcəyimiz də özünü göstərir. Bu, çox mürəkkəb və müəmmalı bir məsələdir. "Dədə Qorqud" eposunda baş verən hadisələri mətn özü keçmiş zamana aid edir. Oğuz elninin ağsaqqalı, bilicisi Dədə Qorqud, demək olar ki, hər bir boyun sonunda baş vermiş hadisələrin keçmiş zamanda olduğunu, hadisələrdə iştirak edənlərin artıq bu dünyada olmadıqlarını bəyan edir:

Qanı dediyim bəy ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi,
Fani dünya kimə qaldı?
[Gəlimlü-gedimlü] dünya,
Axır-son ucı ölümlü dünya! (14, s. 50)
Anlar dəxi bu dünyaya gəldi, keçdi.
Karvan kibi qondı, köçdi.
Anları dəxi əcəl aldı, yer gizlədi,
Fani dünya yenə qaldı... (14, s. 50).

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 398-405*

Oğuzların varlıq aləmi haqqında həyat-ölüm fəlsəfəsini əks etdirən bu dərin mənalı hökmlər boyların iştirakçılarının artıq bu dünyada olmadıqlarını və Dədə Qorqudun onların haqqında keçmiş zamanda danışdığını birmənalı şəkildə göstərir. Ancaq burada bir sirli məqam da vardır. Bütün bunlara baxmayaraq, dastan bizə hadisələri həm indiki, həm də keçmiş zamanda danışır və bu iki zaman bizə eyni zamanda gələcək zamanın fəlsəfi hikmətlərini təlqin edir. "Dədə Qorqud" dastanında zamanların bu cür paralelləşməsini, yaxud başqa bir terminlə desək, sinxronlaşmasını (yəni zamanların bir-birinin yanında durmasını), dastanın bizimlə eyni zamanda həm indiki, həm keçmiş, həm də gələcək zamanda danışmasını Yaşar Qarayev müşahidə etmiş və dastanın bu fəlsəfi mahiyyətini belə ifadə etmişdir: ""Min üç yüz ildir ki, Qorqud xalqın qan və gen yaddaşı kimi yaşayır və özündən əvvəlki min üç yüz ilin də bədii və genetik arxetipini hər sətrində, hər sözündə yaşadır. Üstəlik, növbəti, min üç yüz il üçün də ən sabit, etibarlı, mənəvi-əxlaqi kodlar və genlər yenə bu "ana kitabın" bətnində və ruhunda qorunub saxlanır. Müstəqillikdə minillik və əbədilik üçün əsaslar, xalqlarla kültürlər, yer və göy, torpaq və millət, təbiət və ekologiya arasında davranış və rəftar kodeksi, qanun və ana yasa... hamısı, hamısı öz əksini bu kitabda tapır. Və müstəqillik dövründə də Qorqud yenidən mənəvi intibahın simvolu, milli heysiyyətin və özünüdərkin sənədi olur" (15, s. 4).

Bu fikirdən aydın olur ki, Y.Qarayev "Dədə Qorqud" dastanında üç zaman layının olduğunu müşahidə etmişdir:

Min üç yüz illik – indiki zaman;
Min üç yüz illik – keçmiş zaman;
Min üç yüz illik – gələcək zaman.

Seyfəddin Rzasoy Y.Qarayevin bu fikrini belə şərh etmişdir: "İntellektual dühasına həmişə heyran olduğum bu kişinin fikrilə razılaşmamaq olmur. "Dədə Qorqud" eposu milli düşüncənin epoxal konsentrasiya nüvələrindən biridir: özünə qədərki etnik yaddaşın həm törəməsi, həm daşıyıcısı, həm də ötürücüsüdür. Keçmiş də, indi də, gələcək də onda dövr edir. Bu – get-gedə daha böyük trayektoriya cızan qapalı dövrədir. Əbədi olaraq itmiş, yox olmuş hesab etdiyimiz nə varsa – hamısı elə bu eposun özündədir..." (18, s. 27-28).

"Dədə Qorqud"un zaman-məkan quruluşunun bu özünəməxsusuluğu bizim diqqətimizi mifoloji düşüncə dünyasına yönəldir. Yəni dastana müasir şüurumuzdakı zaman-məkan anlayışı baxımından yanaşsaq, o halda dastanın poetik strukturunu doğru-düzgün izah edə bilməyəcəyik. Bunun səbəbi çox sadədir. Çünki "Dədə Qorqud"un zaman-məkan strukturunun əsasında müasir düşüncəmizin fəlsəfi məkan-zaman modeli yox, mifik düşüncənin fəlsəfi ümumiləşdirmə modeli durur. Bu mənada, "Dədə Qorqud"u mifdən kənarda götürüb izah etmək faydasız bir işdir.

Kamal Abdulla yazır: "Dastan özündə mifoloji dünyagörüşünün və yazı mədəniyyətinin ən əlamətdar cizgilərini saxlamışdır... Mifoloji təsəvvür təkcə bizim

eşitdiyimiz nağıl və əfsanələri bəzəyən, onların məzmununu "müşayiət" edən ornamental bəzəklər məcmuyu deyil. Mifoloji təsəvvür qədim insanın dünyagörüşünün əsasını formalaşdıran, onun hərəkətlərinin normativ sistemini müəyyənləşdirən, onun təbiətlə, ətraf mühitlə, sonradan cəmiyyətlə münasibətlərini tənzimləyən və cilalayan bütöv bir yaşayış üsuludur. Fəlsəfi-etik, hüquqi-normativ sistemdir" (1, s. 52-53).

Bu cəhətdən, demək olar ki, "Dədə Qorqud" dastanının əsasında, bünövrəsində mifin "fəlsəfi-etik, hüquqi-normativ sistemi" durur. Buna da çox təbii yanaşmaq lazımdır. Çünki mifologiya, ümumiyyətlə, istənilən xalqın mədəniyyətinin özülünü, bünövrəsini təşkil edir. S.Rzasoyun yazdığı kimi, "mifologiya hər bir mədəniyyətin etnokosmik substratı kimi, onun diaxron və sinxron strukturunu eyni zamanda (paralel olaraq) təşkil edir. İnsan şüurunun diaxronik başlanğıcı olan mifologiya onun təkamül dialektikasının arxetipik sxemi olmaqla qalmayıb, həmin şüurun bütün tarixi inkişafının sinxron böyümə formullarının da genetik əsasında durur" (17, s. 3).

"Dədə Qorqud" dastanının əsasında mifik fəlsəfənin durmasını dastanda Oğuz elinin əsas düşmənlərinin dəfələrlə ölüb-dirilmə faktları təsdiq edir. Şöklü Məlik, Qara Təkur Məlik, Buğacıq Məlik kimi düşmənlər Oğuz qəhrəmanları tərəfindən öldürülsələr də, onları növbəti boyda yenə diri görürük. Yaxud Seyfəddin Rzasoy müşahidə etmişdir ki, dastanın Basatın Təpəgözü öldürməsindən bəhs edən boyunda Alp Aruzun keçmişi, bu günü və gələcəyi yan-yana təsvir olunmuşdur. Müəllif bu barədə yazır: "Mifoloji düşüncə qapalı və təkrarlanan struktura malikdir. Bir mifoloji qapalı dövrədə doğulan, evlənən, övladları olan, sonra qocalıb ölən qəhrəman yeni qapalı dövrədə yenidən doğulur (dirilir) və birinci dövrədə olan hadisələr yenidən təkrarlanır. Bu – paradiqmatik planda təkrarlanmadır. "Dədə Qorqud" dastanının strukturunda paradiqmatik düşüncə modeli durur. Bu modelə görə, Aruzun həyatı qapalı dövrələr şəklində təkrarlanır. Paradiqmatik düşüncə modelində keçmiş, bugün və gələcək bir-birində təkrarlanmaqla eyni məkan-zamanın hadisələri kimi təqdim olunur. Bu baxımdan, VIII boyda da Aruzun keçmiş, indi və gələcək həyatı sintaqmatik ardıcıllığı nəzərdə tutan diaxron yox, eyni zamanda birgə və yanaşı varolmanı nəzərdə tutan sinxron struktura malikdir. Yəni vahid bir məkan-zaman müstəvisində ardıcıllıq yox, eyni zamanlı təkrarlanma var. "Dədə Qorqud"un VIII boyu da vahid paradiqmatik müstəvidir və Aruzun keçmişi, bu günü və gələcəyi birgə təqdim olunur. Başqa cür desək, mif "potensiya" ilə "kinetikanı" bir-birindən ayırmır: indi (hələlik – ***S.Qasımova***) evlənməmiş Aruzun gələcəkdə doğulacaq uşaqları da onun yanındadır. Çünki onların hamısı vahid qapalı-təkrarlanan dövrənin eyni zamanda var olan elementləridir. Buna görə də Aruz boyun "indiki" zamanında xədim və ölü statusunda olsa da, eyni zamanda keçmişinə və gələcəyinə aid olan oğlanları da onun yanındadır. *Mifik düşüncənin mahiyyəti və möcüzəsi də elə bundan ibarətdir: insanın keçmişi də, gələcəyi də indiki zamanda onunla birgədir* (kursivlə fərqləndirmə bizimdir – ***S.Qasımova***). Elə bu səbəbdən Şöklü Məlik, Qara Təkur

Məlik, Buğacıq Məlik kimi kafirlər "Dədə Qorqud" dastanında eyni zamanda həm diri, həm də ölüdürlər. Bu, paradiqmatik-mifoloji düşüncənin müxtəlif zamanları və onlara aid ölü və diri statusları sinxronlaşdırması xassəsinin ifadəsidir. Bu baxımdan, VIII boyda Aruzun da ölü və xədim statusları onun diri və erkək törədici statusları ilə yan-yanaşı durmuşdur" (18, , s. 245-246).

Bütün bunları deməkdə əsas məqsədimiz ondan ibarətdir "Dədə Qorqud" dastanının bədii fəlsəfəsinin öyrənilməsi hər bir halda mifologiya ilə bağlıdır. Yəni dastanın əsasında duran fəlsəfə mifik fəlsəfədir. Burada fəlsəfi qanunauyğunluqlar adına nələri aşkarlaya biləriksə, onların fəlsəfi mahiyyətini bütün hallarda mifologiya təşkil edir. "Dədə Qorqud" dastanının mifik-bədii fəlsəfəsi" mövzusu üç anlayışı əhatə edir: mif, fəlsəfə və bədiilik. Mifə münasibətdə məsələ aydındır: dastanın əsasında mifin məntiqi durur. Fəlsəfəyə münasibətdə isə məsələ bir qədər başqa şəkil alır. Fəlsəfə – təbiət, cəmiyyət və zaman haqqında ən ümumiləşmiş təsəvvürləri əhatə edən dünyagörüşü sistemidir. Təbii ki, biz burada müasir fəlsəfə elminin təhlil üsullarını dastana tətbiq etməyəcəyik. Çünki bizi maraqlandıran əsas məsələ oğuzların təbiətə, cəmiyyətə və zamana olan fəlsəfi baxışlarıdır. Bu baxışları biz "Dədə Qorqud" dastanından öyrənmək istəyirik. Dastan isə ilk növbədə bədii sənət hadisəsidir. Beləliklə, dastanda oğuzların mifik-fəlsəfi dünyagörüşləri bədii dillə təsvir olunmuşdur. Elə bizi maraqlandıran məsələ bu, yəni dastanda bədiiləşmiş mifik fəlsəfədir. Vurğulamaq istəyirik ki, mifik-bədii fəlsəfəsinin öyrənilməsi elə də sadə bir məsələ deyildir. Burada çox mürəkkəb məsələlər vardır. Bu mənada bir məqamı da vurğulamaq istəyirik ki, dastanın bütün fəlsəfəsi Dədə Qorqud obrazında təcəssüm olunmuşdur. Yəni Dədə Qorqud – mifik fəlsəfəni təcəssüm etdirir. Bu fikri vaxtilə K.Abdulla söyləmişdir. Müəllifə görə, "Dədə Qorqud yalnız ozan, yalnız hadisələri birləşdirib düzən şair, sənətkar deyil" (1, s. 24), "onun hər boyun sonunda gəlib dediyi sözlər Oğuz aləminin sahmanını tənzim edən, bu sahmanı yaradan böyük bir həyat təliminin, proqramın tərkib hissələri təsirini bağışlayır" (1, s. 41), (və bu mənada – S.Qasımova) "mifin dastanda səlahiyyətli səfiri Dədə Qorqud"dur. Dədə Qorqud bütün məqamlarda Mifi tam şəkildə əvəz edə bilən bir qüvvədir. Dədə Qorqud – Mif Oğuzun qoruyucusu, hamisi, ozanı, yəni şairi, yəni bilicisi, şamanı, taleyini müəyyənləşdirən, bəlalardan hifz edən, bir növ, ilk və son istinad nöqtəsidir" (1, s. 66).

Beləliklə, "Dədə Qorqud dastanının fəlsəfəsi və bu fəlsəfəni təcəssüm etdirən Dədə Qorqud obrazı bilavasitə mifin məntiqi sistemini, yəni mifik fəlsəfəni inikas edir və bu fəlsəfə birmənalı şəkildə bədii dillə təsvir olunmuşdur. Ona görə də biz bu fəlsəfəni "mifik-bədii" fəlsəfə adlandırırıq.

"Dədə Qorqud" dastanı nadir bir abidədir. Onun fəlsəfəsi mətndə iki şəkildə öz ifadəsini tapmışdır:

1. Dastanın müqəddiməsində verilmiş deyimlərdə;
2. Ayrı-ayrı boylarda təsvir olunmuş hadisələrin fəlsəfi mənalarında.

Müqəddimədə olan fəlsəfi hökmlər – atalar sözlərinin hamısı Dədə Qorqudun dilindən deyilir. Bu cəhətdən, diqqəti ilk növbədə Dədə Qorqud obrazının özü cəlb edir. Bütün qorqudşünasların diqqət mərkəzində olmuş bu obraz haqqında müxtəlif fikirlər söylənmişdir. Onlara diqqət etmək dastanın mifik-bədii fəlsəfəsini öyrənmək baxımından yolumuza işıq tuta bilər. V.N.Basilova görə, "Qorqud obrazı, görünür, mifdəki mərasim başçısı, mədəni qəhrəmanın hamisi obrazına gedib çıxır. Mərasimin başçısı mərasimdən keçənin təcəssüm olunduğu totem heyvandan əmələ gəlmişdir. Lakin Qorqudu hər hansı vahid totemlə bağlamaq, çətin ki, düzgün ola. Ona görə ki, bu obraz bu sayaq çoxlu personajlardan yaranmışdır. Daimi dəyişən ictimai durum miflərə yeni element və təsəvvürlər gətirmişdir. Mif konkret tarixi epoxanı inikas edən detalları özünə hopdurmuşdur. Oğuz eposunun yaranmasının və sonralar müsəlman müqəddəsi Qorqut ataya çevrilmiş personajın ehtimal olunan təkamül sxemi belədir" (20, s. 52). Müəllif Qorqud surətini bütövlükdə ilk şaman, şamanların və nəğməkarların himayəçisi, simli alət olan qopuzun ixtiraçısı hesab etmişdir (21, s. 5).

Görkəmli mifoloq Mirəli Seyidov bu obrazla bağlı geniş tədqiqatlar aparmış, onun mifik mənasını etimoloji yolla aydınlaşdırmağa çalışmışdır. Emin Ağayevin yazdığı kimi, "M.Seyidov... Dədə Qorqud obrazının yüzilliklər ərzində qazandığı, müxtəlif dövrlərin bu obraza verdiyi mifoloji, dini, epik mənaların mahiyyətinə məhz etimologiya ilə gedib çıxa bilmişdir" (2, s. 163). S.Rzasoy da yazır ki, "M.Seyidov... sözü götürür, onu leksemlərə, morfemlərə, fonemlərə qədər parçalayır, ümumtürk materialı əsasında leksik mənasını tapmağa cəhd edir və bundan sonra əldə etdiyi mənaları tarixi-müqayisəli kontekstdə etnik mədəniyyətin məlumatları əsasında dəyərləndirirdi" (16, s. 151).

M.Seyidova görə, "Qorqud" iki sözün – "qor" və "qut" kəlmələrinin birləşməsindən əmələ gəmişdir. Hər iki söz iki mənaya malikdir: "Qor" – od və maya, "Qut" – a) xoşbəxtlik, bəxt, bərəkət, tale; b) ruh, həyat qüvvəsi, can (19, s. 184, 181).

Füzuli Bayat "Qorqud" sözünə iki etimologiya vermişdir:

1. Korkut – "qorxutmaq" mənasında;
2. Qorqud – qutu qoruyan, qutu bilən kişi mənasında (3, s. 23).

Tofiq Hacıyev "Qorqud" sözünü "qorumaq" feli ilə əlaqələndirmişdir: "Tanrıçı inancında Tanrının öz məxluqunu qoruması, himayə etməsi təsəvvürü hakimdir" (11, s. 17).

Hüseyn İsmayılovun yazdıqları "Qorqud"un qoruyuculuq mənası ilə bağlı olması fikrini qüvvətləndirir: ""Qorqut" çox əski bir inamdır; hami ruhdur; qurdla bağlıdır; qurd totemidir; ...Vatikan nüsxəsində "Qorqurt" yazılış şəkli (...) orfoqrafik xəta olmayıb, katibin "Qorqud" adı ilə bağlı əlavə informasiyasının olduğundan xəbər verir; bu anlamda "Qorqut" – "qoru qurt (qoruyucu qurd) kimi izah oluna bilər. Hami ruh kimi əski türk şaman panteonunda, ata (peyğəmbər) kimi Tanrıçılıq sistemində... "Qorqud" nə qeyri-müəyyən bir mifoloji varlıq, nə də müəyyən bir tarixi şəxsiyyətdir. Əski çağın reallığına

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 398-405*

görə, bu, konkret olaraq, "qurd" (börü, gök börü, canavar) kimi təsəvvür olunmuşdur. Hami ruh kimi (animizm səviyyəsi), totem kimi (totemizm səviyyəsi) təsəvvürlərdə oturuşmuş Qorqud (qoruyucu qurd, xilaskar qurd) mifopoetik qavrama prosesində sakral (xilaskar, şaman, ata, peyğəmbər) və real (kahin, ozan, ağsaqqal, müdrik şəxsiyyət) olaraq semantik üzvlənmişdir" (13, s. 47).

Kamil Hüseynoğlu Qorqud adına "şanlı, şöhrətli qurd" yozumunu vermişdir (12, s. 99-100).

Rövşən Əlizadə Qorqudu qurd kultu kontekstində əcdad qurd kimi izah etmişdir (10, s. 93-101)

C.Bəydili (Məmmədov) Qorqud obrazını övliya, advermə, ölümdənqaçma, esxatoloji sonluq kimi istiqamətlərdə araşdırmışdır (4, s. 172-176; 5, s. 29-39; 6, s. 27-34; 8, s. 71-78). Müəllif obraz haqqındakı fikirləri belə yekunlaşdırmışdır: "Dədə Qorqud qədim mifoloji görüşlərlə bağlıdır, onun haqqında tutarlı tarixi qaynaqlar olmadığından onun tarixi və ya əsatiri şəxsiyyət olduğu bəlli deyil, bir el müdrikidir ki, getdikcə ümumiləşmiş rəmzə çevrilmişdir, əfsanəvi şəxsiyyət olması haqqında söhbətlər əsassızdır, Qorqut Ata tarixi şəxsiyyətdir, gerçək tarixi prototipini axtarmağa ehtiyac yoxdur, ehtimal ki, öz kökü ilə mərasim hamisi obrazına bağlanır və b.k." (7, s. 225).

İndi dastanın özünün bu obrazı necə təqdim etməsinə diqqət edək: "Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından Qorqut ata diyərlər bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, – nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həqq təala anın könlinə ilham edərdi..." (14, s. 31).

Bu təqdimatdan aşağıdakı mənalar aydın şəkildə bilinir:

a) Qorqud ata "Rəsul əleyhissəlam zəmanına yaqın" dünyaya gəlmişdir;

b) Oğuz elinin bilicisidir: bütün söylədikləri baş verir;

c) Qorqud ata məlumatları Ğaib dünyadan alır;

ç) Bu məlumatlar onun könlünə Həqq təalanın ilhamı kimi daxil olur.

Dədə Qorqud obrazının məna aləminin araşdırılmasında onun Ata və Dədə titullarının dərin mənası vardır.

H.İsmayılov "Ata" adı haqqında yazır: Öncə bu ad əcdad kultunun işarəsidir, icma başçısıdır. Sonra şaman-kahindir: "qam ata". Daha sonra əski türk monoteist dini olan Tanrıçılığın peyğəmbəridir – savçıdır (əski türkcədə "elçi", peyğəmbər) (13, s. 16).

Məhərrəm Cəfərli Qorqudun Dədə və Ata adlarını eyni məzmunlu hesab edib göstərir ki, "atalıq, yaxud dədəlik əcdad ruhlarla bağlılıq deməkdir" (9, s. 80).

S.Rzasoy göstərir ki, "beləliklə, Qorqudun "ata" adı həm tarixi-diaxron, həm də sinxron-paralel strukturu baxımından Oğuz etnokosmik düşüncəsinin universumudur. Bu adda bir çox diferensial törəmə və transformasiyalar işarələndiyi kimi bizi maraqlandırın Qam-Ata paradiqması da işarələnmişdir. Bu baxımdan, Ata Qorqud paralel olaraq Əcdad Qorqud və Qam (şaman) Qorqud deməkdir" (17, s. 311).

Beləliklə, "Dədə Qorqud" dastanının mifik-bədii fəlsəfəsi haqqında nəticə kimi bunları söyləmək mümkündür:

1. “Dədə Qorqud” dastanında öz əksini tapmış fəlsəfə mahiyyətinə görə mifik fəlsəfədir. Hadisələrin əsasında mifin fəlsəfi məntiqi durur.

2. “Dədə Qorqud” dastanının öz əksini tapmış fəlsəfə bədii dillə ifadə olunmuşdur. Ona görə də bu fəlsəfəni “mifik-bədii fəlsəfə” adlandırmaq daha düzgündür.

3. “Dədə Qorqud” dastanında mifik fəlsəfəni bilavasitə təcəssüm etdirən obraz Dədə Qorquddur.

## Ə D Ə B İ Y Y A T

1. Abdulla K. Mifdən Yazıya və yaxud Gizli Dədə Qorqud. Bakı: Mütərcim, 2009, 376 s.
2. Ağayev E. Azərbaycan mifologiya elmi və Mirəli Seyidov. Bakı: MBM, 2008, 200 s.
3. Bayat F. Korkut Ata. Mitolojiden Gerçekliğe Dede Korkut. Ankara: Kara M, 2003, 89 s.
4. Bəydili (Məmmədov) C. Övliya Qorqut Ata // “Azərbaycan” jur., 1999, № 9, s. 172-176
5. Bəydili (Məmmədov) C. Qorqut Atanın advermə funksiyası / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. X kitab. Bakı: Səda, 2001, s. 29-39
6. Bəydili (Məmmədov) C. “Qorqut” adının ölümdən qaçma motivi ilə bağlılığı // “Dədə Qorqud” jur., 2001, № 1, s. 27-34
7. Bəydili (Məmmədov) C. Qorqut Ata / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 221-229
8. Bəydili (Məmmədov) C. Türk esxatoloji düşüncəsi və Dədə Qorqut // “Qloballaşma və Azərbaycan mədəniyyəti” II Respublika elmi-praktiki konfransının materialları. Bakı: 2004, s. 71-78
9. Cəfərli M. Dastan və mif. Bakı: Elm, 2001, 188 s.
10. Əlizadə R. Azərbaycan folklorunda təbiət kultları. Bakı: Nurlan, 2008, 174 s.
11. Hacıyev T. Bir daha Qorqudun kimliyi haqqında // “Dədə Qorqud” jur., 2002, № 2, s. 3-25
12. Hüseynoğlu K. Dədə Qorqud və Oğuz xaqan tarixi şəxsiyyətlər kimi // Folklorşünaslıq məsələləri (V buraxılış). Bakı: Nurlan, 2002, s. 93-108
13. İsmayılov H. Göyçə dastanları: Türk epik sistemində dastan informasiyasının fasiləsizliyi / Göyçə dastanları və aşıq rəvayətləri. Toplayanı, tərtib edəni, ön sözün, qeyd və izahların müəllifi H.İsmayılov. Bakı: Səda, 2001, s. 3-82
14. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.
15. Qarayev Y. Bütün xalqların və dövrlərin kitabı / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. X kitab. Bakı: Səda, 2001, s. 4-10
16. Rzasoy S. Oğuz mifinin tədqiq tarixindən: prof. Mirəli Seyidovun etimoloji-linqvistik, tarixi-filoloji yanaşma təcrübəsi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XV kitab. Bakı: Səda, 2004, s. 150-161.
17. Rzasoy S. Oğuz mifologiyası. Bakı: Nurlan, 2009, 363 s.
18. Rzasoy S. “Dədə Qorqud” eposu. II kitab. Dastanın Alp Aruz variantının ilk bərpa təcrübəsi. Bakı: Elm və təhsil, 2024, 304 s.

19. Seyidov M. “Qorqut” sözünün etimoloji təhlili və obrazının kökü haqqında // “Azərbaycan” jur., 1979, № 1, s. 179-207
20. Басилов В.Н. Культ святых в исламе. Москва: Мысль, 1970, 144 с.
21. Басилов В.Н. Коркут / Мифы народов мира. В 2-х томах. Том 2. Москва: Советская энциклопедия, 1982, с. 5

**Sevinj Gasimova**

**SUMMARY**

**“THE MYTHIC-ARTISTIC PHILOSOPHY OF THE EPIC ‘DEDE KORKUT”**

The study of the artistic philosophy of the epic “Dede Korkut” is in every respect connected with mythology. The philosophy underlying the epic is a mythic philosophy. Whatever philosophical regularities we may attempt to reveal, their philosophical essence in all cases is formed by mythology. The topic “The Mythic-Artistic Philosophy of the Epic ‘Dede Korkut’ ” encompasses three concepts: myth, philosophy, and artistic expression. With regard to myth, the issue is clear: the epic is based on the logic of myth. With regard to philosophy, however, the matter takes on a somewhat different character. Philosophy is a worldview system that encompasses the most generalized conceptions of nature, society, and time. The epic, on the other hand, is primarily a phenomenon of artistic creativity. Thus, the mythic-philosophical worldview of the Oghuz people is rendered in the epic through artistic language.

Keywords: Epic of Dede Korkut, mythic philosophy, mythic-artistic philosophy, mythology, the image of Dede Korkut.

**РЕЗЮМЕ**

**«МИФИКО-ХУДОЖЕСТВЕННАЯ ФИЛОСОФИЯ ЭПОСА „ДЕДЕ КОРКУД“»**

Изучение художественной философии эпоса «Деде Коркуд» в любом случае связано с мифологией. Философия, лежащая в основе эпоса, является мифической философией. Какие бы философские закономерности мы ни пытались выявить, их философскую сущность во всех случаях составляет мифология. Тема «Мифико-художественная философия эпоса „Деде Коркуд“» охватывает три понятия: миф, философию и художественность. В отношении мифа вопрос ясен: в основе эпоса лежит логика мифа. Что касается философии, то здесь ситуация принимает несколько иной характер. Философия — это система мировоззрения, охватывающая наиболее обобщённые представления о природе, обществе и времени. Эпос же прежде всего является явлением художественного творчества. Таким образом, в эпосе мифико-философское мировоззрение огузов изображено художественным языком.

**Ключевые слова:** эпос «Деде Коркуд», мифическая философия, мифико-художественная философия, мифология, образ Деде Коркуда.

**RƏYÇI: professor SEYFƏDDİN RZASOY**